

# ÇE GEVARA, ŞEYX SƏNAN VƏ FAZİL SƏNAN

(esse)

*Qərib MEHDİ*

**Bəzən ədəbi fikirlərin açımına siyasi hadisələr də lazım olur.**

Yazıçı Fazil Sənanın sənətkar taleyini düşünəndə siyasi aləmdən bir qəhrəmanı - Latın Amerikasının cəngavəri, azadlıq mübarizi Çe Gevaranı xatırlayıram. Biri qılınc adamıdı, o biri qələm. Biri lap uzaqdadır, o biri lap yaxında - əlçatarda. Şübhəsiz, onlar fərqli varlıqlardır. Ancaq bir məsələdə oxşarlıqları var. Hansı məsələdə?

Çe Gevara Fidel Kastro ilə əl-ələ verib, əqidədaş olub Kubada sosializm qurmaq üçün diktator Batistanı məğlub etdilər. Kuba Latın Amerikasında ilk sosialist ölkəsi oldu. Ölkəni bu yolla idarə etmək üçün vəzifələri paylaşmaq lazım gəldi. Çe Gevaraya yüksək vəzifələrdən biri təklif olundu. Ancaq o, bu təklifi qəbul etmədi. Qalib qəhrəman bir ölkənin buxovdan qurtulmasını məqbul saymadı. O, bütün qitəni xunta diktatorluğu sistemindən azad etmək üçün inqilabi hərəkatını başqa bir ölkədə - Boliviyada davam etdir-məyə qərar verdi. Mübarizənin necə alınması başqa bir mövzunun söhbətidir. Məni siyasi ab-havadan bədii ab-havaya keçid eləyən oxşarlıq maraqlandırır. Qayıdaq yaxındakı "Çe Gevaraya" - Fazil Sənana.

Mən Fazil Sənanı tanıyandan (30 illik zaman kəsiyində) onu sinəsi sözlü, əli qələmli görmüşəm. Bu qələm necə işləyib? Bu söz qatları necə "istismar" olunub? Bəs indi necə davam edir? Diqqət yetirək.

Fazil 40 ildir ki, sözün, qələmin təhriki ilə ağ kağız meydanında çalışaraq onu "qara" günə qoyur. Onun yaradıcılıq keçimlərini üç dövrə ayırmaq daha düzgündür.

Birinci dönəmdə - oxucu dövründə o, başqalarının yazdıqlarını gözünə təpib. Ədəbi sözə son dərəcə həssas olan Fazil yorulmaq bilmədən oxuculuq missiyasını yerinə yetirib. Dünya yazarlarının, ölkəiçi klassik və çağdaş yazarların, o cümlədən, Gəncə ədəbi mühiti yazarlarının ən sadiq oxucusu olub.

Oxucu olmaq feyzindən oxuduqları haqqında rəy bildirmək mərhələsinə keçən Fazil Sənan zaman keçdikcə fəaliyyət dairəsini genişləndirib. Oxuduğu əsərlərin bir çoxuna mətbuat səhifələrində öz fikirlərini bildirib. Bu dəyişiklik onu ikinci yola istiqamətləndirirdi. Xeyirxah niyyətlə qələmə alınan ilk yazılarının ruhunda bir esseçilik özünü qabarıq şəkildə büruzə verməkdəydi.

Yaradıcılığının ikinci mərhələsində o, yaxşı tanıdığı alimlər, şairlər, yazıçılar, qabaqcıl təhsil və mədəniyyət işçiləri haqqında kitablar yazıb nəşr etdirməyə başladı. Hamısını da təmənnasız, hamısını da şəxsi maddi vəsaiti hesabına. Mən başqalarını görüb qiymətləndirməyi və cəmiyyətə göstərmək üçün əmək sərf etməyi qəhrəmanlığın bir nümunəsi - Çe Gevaralıq sayıram. Bəli, bu yazının qəhrəmanı Fazil Sənan - Çe Gevara bir ölkəlik - bir kitablıq işini başa vurandan sonra başqa bir yazı adamının qulluğunda durdu. GDU-nun unudulmaz müəllimi, dosent Tofiq Musayev, görkəmli şair Aydın Murovdağlı, Bahadur Fərman, Mikayıl Yanar, Qarabağ müharibəsi veteranı, şair-publisist İmam Cəmilli haqqında kitabları tezliklə işıq üzü gördü. Məhsuldar yazıçının ərsəyə gətirdiyi kitabların siyahısını bir az da uzatmaq olar. Onun ədəbi uğurlarının mənzərəsində bu sətirlərin müəllifi də öz yerini tutdu. Tənqidçilik "qılıncını" qınına qoymayan Fazil Sənan mənim "Rast" povestimin məziyyətlərini "27 ildən sonra" iri həcmli düşüncələrində sərf-nəzər etdi.

Fazil bir də gözünü açanda gördü ki, dərzi iynəsi ilə başqalarını bəzəyən kimi, o da həmkarlarının sənət aləmini bəzəməklə məşğuldur. Bu yolun tərkini tamam qılmasa da, yaradıcılığının üçüncü mərhələsinə qədəm qoydu. Dünyagörüşü, qələm təcrübəsi, Tanrının bəxş etdiyi istedad ona bədii əsərlər - hekayələr, povestlər, romanlar yazmaq, oxucu məhəbbətinin tamını dadmaq xeyir-duası vermişdi.

Bu mərhələdə onun bədii yaradıcılığı - ədəbi-tənqid sahəsindəki fəaliyyəti, bədii-publisistik yazılarını üstələyərək önə çıxdı. Az əvvəl çap olunmuş "Ölümə ərizə", "Xoruz", "Oğurlanmış arzular" kimi maraqlı əsərlər cərgəsinə "Əzraillə rəqs" adlı irihəcmli kitabında toplanmış hekayələr, "Gözlə, qayıdacağam" romanı da qoşuldu. Bununla belə, yaradıcılığının "Çe Gevara mərhələsi" də yeni-yeni məqalələrlə, müsahibələrlə davam etdi.

Yazı masasının arxasında oturmaqdan qorxmayan Fazil Sənan sürət qatarını andırır. O, əsərlərində dövrün ictimai-siyasi məsələlərinə toxunur, problemlərin çözüm yollarını göstərir. Yazıçı həmişə ədalətin, haqqın tərəfində dayanır. Xüsusilə, sosial problemlərin insan mənəviyyatına təsirini, əxlaqın aşınma səbəblərini cəsarətlə nümayiş etdirməyə çalışır. Yazılarında vətəndaşlıq hissi ilə gerçək ziyalılıq qoşa xətt kimi yanaşı durur. Yazıçı qazandığı uğurlarının əks-sədasını daha çox oxucularından eşidir, nəinki qələm yoldaşlarından. O, başqalarının yazılarını səmimi-qəlbdən təhlil etdiyi kimi, qələm dostları da Fazilin ədəbi uğurlarını mərkəzi mətbuat səhifələrində göstərməliydilər. Fazil Sənan bu barədə heç kimə heç nə demir. Amma qəlbinin dərinliyində bunu dostlarından umursa, haqlıdır.

Daha bir oxşarlıq: Şeyx Sənan



Tarixə nəzər yetirdikdə görürük ki, xaçlılarla - xristianlarla müsəlmanların çoxsaylı davaları olub. Bu dava, bu mübahisələr indi də davam etməkdədir. Elə Dağlıq Qarabağ müstəvisində gedən mübarizəni yada salmaq kifayətdir. Torpaq qəsbi ilə müşahidə olunan bu savaşlar müxtəlif dini inanclara məxsus olan cəmiyyətləri bir-birindən aralı tutur. Başbilənlər, liderlər, BMT-yə toplaşanlar bu işi tənbəltənbəl, siyasi yolla bir araya gətirməyə, konfliktlərin çarəsini tapmağa çalışırlar. Dönə-dönə təkrar olunan hadisələr göstərir ki, dinə, millətə, irqə bağlanmayan sevgi siyasətdən öndə dayanır. Azərbaycan ədəbiyyatı Nizami Gəncəvidən üzübəri multikultural çalarlı olmuşdur. İki müxtəlif millətə, dinə mənsub olan gəncin qarşılıqlı sevgisi bir daha bunu təsdiq etmirmi? Siyasətdə barış ruhlu xalq diplomatiyası missiyası sanki münaqişəli sevgilərin üzərinə qoyulur. Məyusedici nəticələri nəzərə alan atalarımız "elini ürküt, axsağından yapış" çağırışı etsələr də, əsil sevgi məqsədindən geri çəkilməyi qəbul etmir. Keçilməzliyə baxmayaraq, Kərəm tərsa qızı Əslidən, Bahadır Sonadan, Əli Ninodan dönmədi. Nəticəsi necə oldu? Heç nə. Hələ onlar eyni coğrafi ərazidə - Güney Qafqazda yaşayırdılar. Ərəbistanda yaşayan Şeyx Sənanı yada salanda adamın matı-qutu quruyur.

Şeyx ərinməz-ərinməz qızmar qum səhralarından keçib özünü gürcü qızı Xumara yetirir. Bu butalı (haqdan gələn) izdivaca mane olmağa çalışan din xadimləri papaslar (keşişlər) təhqiramiz şərtlər irəli sürürlər. Sənan müsəlmanların müqəddəs səmavi kitabı "Quran"ı yandırmalı, şeyxliyindən imtina edib donuz otarmalı, boynundan xaç asaraq xristianlığı qəbul etməlidir. Sevgisini daha uca tutan Şeyx Sənan şərtləri qəbul edir. Ancaq yenə nəticə ürəkaçan olmur, Şeyx ictimai-siyasi və dini ziddiyyətlərin mənqənəsində məhv olur.

Tanrı təmənnasız yaradır. İnsanlar təmənnalı təsnifat aparırlar. Tarixən dini, milli ayrıseçkiliklə irqi ayrıseçkilik (arilər və qeyri- arilər) yanaşı addımlamışdır. Sonuncunu fransız alimi Gobineaun 1853-cü ildə yazdığı "İrqlər arasında bərabərsizlik" elmi əsərində bir konsepsiya kimi ortalığa qoydu. Azad sevgi hissinin vəziyyəti daha da ağırlaşdı. "Qara!.. Budur səbəb!" deyən mavr Otello qara olduğu üçün ağ irqə mənsub Dezdemona ilə aralarında faciə yaşandı. Bu hal dini zəmində də cərəyan edirdi. Mirzə Kazım bəy rus elitasında yer almaq, rus gözəli ilə ailə qurmaq üçün ənənəvi dinindən - islamdan imtina edib, xristianlığı qəbul etdi. Bu dəfə onun bəxti gətirdi, Şeyx Sənanın acı taleyini yaşamadı.

Qarışıqların (mulatların, metislərin) milli mənsubiyyətini, dini inancını saxlayaraq sevgi məkanına daxil olmaq istəyi çox vaxt çətin problemlərlə üzləşir. Siyasət sevgi aləminə məqsədli müdaxilə edəndə, istər-istəməz məhəbbət itki verərək geri çəkilir.

Buna baxmayaraq, multikultural yazıçı Fazil Sənan üzləşəcəyi qınaqları nəzərə almadan adaşı Şeyx Sənanın yolunu tutur, "Gözlə, qayıdacağam" romanında bir azərbaycanlı gəncini xaçlı (erməni) qızı ilə vüsala yetişdirməyə, nümunəvi, beynəlmiləl ailə modeli qurmağa girişir. Və bu ağır, əvəzsiz zəhmətə dözərək müxtəlif din daşıyıcılarının sevgisini oxucularına təqdim edir.

Sonuc bu sevgiyə də çıraq yandıra bilmir. Çünki erməni işğalçıları Azərbaycan torpaqlarını qəsb etmək siyasətindən əl çəkmirlər. Siyasət qurban almaq, sevgi qurban vermək üstündə qurulur. Nə qədər ki, siyasət güclüdür, məkrlidir, qapsamçıdır, - Fazil Sənanlar da Şeyx Sənan kimi məqsədinə nail ola bilməyəcək.

Və bir də oxşarlarından - Çe Gevaradan, Şeyx Sənandan seçilən, sırf özü olan bir Fazil Sənan da var. Bu Fazil Sənan 50 ildən çox Beyləqanda, Göygöl rayonunun Hacıməlikli kəndində Azərbaycan ədəbiyyatının tədrisi ilə məşğul olub. Bir xoşbəxtliyə baxın: yazıçı olan kəs ədəbi simalarımızın yaradıcılığını; ahəngdarlığı ilə bal şirinliyi verən dilimizin quruluşunu yorulmadan, peşəsindən həzz ala-ala şagirdlərinin bilik sərvətinə çevirib. Bundan qürurlu nə ola bilər?!

Fazil müəllim təkcə dərs deməklə kifayətlənməyib. O, dövri mətbuat səhifələrində səmərəli pedaqoji təcrübəsindən, metodik üsullardan vaxtaşırı yazılar dərc etdirib. Yüksək məclislərə, müşavirələrə, qurultaylara dəvət alıb, bilgilərini iştirakçılarla paylaşıb. Əməyi "Baş müəllim", "Ali kateqoriyalı müəllim" fəxri adları, "Xalq təhsili əlaçısı" döş nişanı ilə dəyərləndirilib.

Nəhayət, yaş senzi - 65 yaş özünü yetirdi. Sevdiyi məktəbin qapıları örnək göstərən müəllimin üzünə təəssüf hissi yaşanmadan bağlandı. Halbuki müqavilə ilə, gənclik enerjisi ilə işləməyə qadir olan, həm də yazıçı missiyası daşımaqla da şagirdlərinə nümunə olan ədəbiyyat müəllimini işdə saxlaya bilərdilər. Bunu etmədilər. Səbəb aydın idi.

Boşalan yerin - ştatın müştərisi çox olur. Biri dedi: "Bu yazıçı xoruzdan çox yazırdı. İndi onun xoruzunu qoltuğuna vermək dəmi çatıb". O birisi həmfikrinə daha təsirli məsləhətlər verdi: "Onun səhərin açılmasını xəbər verən xoruzunun boğazına elə bir bıçaq çəkmək lazımdır ki, bir daha səsi çıxmasın". Məktəblilər də bu halı kövrək səslə bir-birinə pıçıldadı: "Fazil müəllim bir daha bizə dərs deməyəcək. Çox heyf ". Beləliklə, sevimli şagirdlərini sevimli müəllimlərindən insafsızcasına ayırdılar.

İndi 17 kitabın müəllifi, Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, Gəncəbasar ədəbi mühitinin hörmətli nümayəndəsi, müddətli Prezident Mükafatçısı Fazil Sənan təqaüdçü həyatı yaşayır. Yaradıcı adam, qabaqcıl təhsil işçisi üçün darıxdırıcı haldır. Ömrün epiloqu belə olur. Bu halı qüdrətli şairimiz Məmməd Araz da demişdi: "Bu da belə bir ömürdü yaşadım".

**Ümid verən odur ki, mənəviyyatı silkələyən heç bir itki Fazil Sənanı ağ bayraq qaldırmağa qoymayacaq. Nə qədər ki, o, sevdiyi kağızla, qələmlə birlikdədir.**